

# Bir millət, iki dövlət

***Azərbaycan-Türkiyə iqtisadi əlaqələri ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına və tarixi-mənəvi qardaşlıq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. İqtisadi əlaqələr dərin tarixi köklərə dayansa da, bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edir.***




Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilməsi xarici siyasətin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı işgüzar səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayıb və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsinə səbəb olub.

Ölkələrimizin iri iqtisadi layihələrin reallaşdırılmasında eyni mövqedən çıxış etmələri yeni coğrafi-siyasi gücün ortaya çıxmasına səbəb olmuş, öz növbəsində bu iki dövlət üçün yeni faydalı iqtisadi vəziyyətə zəmin yaratmışdır. Bu gün qonşu və Avropa ölkələrinin, bölgədə marağı olan dövlətlərin Türkiyə və Azərbaycanla ikitərəfli münasibətdə uyğunlaşdırılmış siyasət yürütmələrinin şahidi oluruq. Bir sıra dövlətlər Azərbaycan və Türkiyəyə yanaşmada bu iki qardaş ölkənin hərbi, siyasi, iqtisadi sahədə yaxın, bir çox hallarda isə vahid mövqedən çıxış etmələrinə uyğun mövqe sərgiləmələrini müşahidə edirik. Xüsusilə, 44 günlük Qarabağ müharibəsindən sonra Azərbaycan və Türkiyənin bölgəmizdə, hətta dünya çapında vahid güc mərkəzinə çevrilməsi prosesinin işartılarını görmək mümkündür. Bölgəmizdə yaranan yeni reallıqlar iqtisadi münasibətlərin daha böyük coğrafiyaya keçidi üçün geniş perspektiv yaradır. Bu gün dünya miqyasında dost və qardaş dövlətin güc mərkəzi olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, nəinki yerləşdiyi bölgədə, dünyada Türkiyənin iştirakı olmadan heç bir məsələ öz həllini tapa bilmir və yaxın tarix bunu göstərdi: "Biz buna çox sevinirik, çünki Türkiyənin gücü bizim gücümüzü artırır. Bizim gücümüzün birləşdirilməsi bizi daha da güclü edir. Əminəm ki, biz bundan sonra da hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizin uğurlarına sevinəcəyik".

İki ölkə arasında müttəfiqlik münasibətləri İkinci Qarabağ müharibəsində qələbə simvollarından birinə çevrilmişdir. Ən böyük uğurlardan biri də "Şuşa Bəyannaməsi" oldu. Bəyannamə Azərbaycan və Türkiyənin strateji müttəfiqlik münasibətlərini rəsmi səviyyədə təsbit edir. "Şuşa Bəyannaməsi"ndə öz əksini tapan strateji müttəfiqlik məsələləri Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə sıx əməkdaşlığı, təhlükəsizlik və müdafiə sahələrini nizama saldı. Müttəfiqlik Bəyannaməsi xalqlarımızın və ölkələrimizin gücünə güc qatıb, Türk dünyasının, ortaq köklərə sahib olan Türk xalqlarının möhkəm şəkildə birləşməsini təmin etdi. Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın ölkələrimiz arasında müttəfiqlik, strateji tərəfdaşlıq, güclü iqtisadi və mədəni əlaqələrin ən yüksək həddə çatmasında rolları əvəzolunmazdır.

Azərbaycanın neft-qaz strategiyasının həyata keçirilməsi Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsində mühüm əhəmiyyət kəsb edir. Xəzər regionunda fəal mövqeyi ilə seçilən və Azərbaycanın bütün məsələlər üzrə müttəfiqi Türkiyə əsas diqqətini respublikamızın neft ehtiyatlarının xarici bazarlara çıxarmaq marşrutu üzərinə cəmləşdirib. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda, hər iki dövlət Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Xüsusən də hər iki ölkənin humanitar fəlakətlər zamanı bir-birinə dəstəyi, qarşılıqlı yardımı və mənəvi həmrəyliyi münasibətlərin nə qədər dərin və sarsılmaz olduğunu bir daha sübut edir. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni dünyada nümunəvi dövlətlərdən birinə çevirib.




Azərbaycan və Türkiyə iqtisadiyyatın bütün sahələrində, xüsusən də enerji sahəsində uzun illərdir uğurlu və səmərəli əməkdaşlıq edirlər. Hazırda hər iki ölkədə əlverişli biznes mühiti formalaşıb, investisiyaların təşviqi və qorunması ən yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, Azərbaycan və Türkiyə şirkətləri qarşılıqlı olaraq ölkələrimizin iqtisadi həyatında uğurla fəaliyyət göstərirlər.

Bu münasibətlərdə enerji sektoru xüsusi yer tutur. Ölkəmiz Cənubi Qafqazın ən böyük enerji ixracatçısı kimi Türkiyə ərazisindən Avropa bazarına enerji tədarükündə mühüm mövqeyə malikdir. Xüsusilə, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri iki ölkə arasında enerji sahəsində əməkdaşlığın təməl sütunlarıdır. Bu layihələr təkcə iqtisadi baxımdan deyil, həm də regional siyasi sabitlik və enerji təhlükəsizliyi üçün də strateji əhəmiyyət kəsb edir. 2020-ci ildən tam fəaliyyətə başlayan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) isə Azərbaycanın təbii qazını Türkiyə vasitəsilə Avropaya çatdırmaqla Cənubi Qafqazı Avropa enerji bazarına birləşdirən əsas dəhlizə çevrilib. TANAP yalnız iqtisadi tərəfdaşlığı gücləndirməklə kifayətlənmir, həm də Avropanın enerji təhlükəsizliyi siyasətində Azərbaycanın və Türkiyənin rolunu əhəmiyyətli dərəcədə artırır. Bu tərəfdaşlığın daha bir nümunəsi isə İğdır-Naxçıvan qaz kəməri layihəsidir. Uzun illər Ermənistanın blokadada saxladığı Naxçıvan Muxtar Respublikası üçün bu kəmər həyati əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyə prezidentlərinin uzaqgörən siyasəti nəticəsində ərsəyə gələn bu layihə Naxçıvanın enerji təminatında yeni mərhələ açıb. Cari il martın 5-də İğdır-Naxçıvan qaz kəmərinin istismara verilməsi iki qardaş ölkənin həmrəyliyinin və ortaq enerji siyasətinin növbəti təntənəsi oldu. Kəmər Naxçıvanın təbii qaz ehtiyacını tam təmin etməklə yanaşı, muxtar respublikanın enerji təhlükəsizliyini gücləndirib və bir mənbədən asılılığını aradan qaldırıb.

Hərbi sahədə də tərəfdaşlıq möhkəm təməl üzərində qurulub. Türkiyə Azərbaycanın müdafiə potensialının artırılması üçün hərbi təlimlər keçirir və texniki dəstəklə, hərbi əməkdaşlığı daha yüksək səviyyəyə çatdırıb. Xüsusilə, İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi iki ölkə arasındakı siyasi və hərbi münasibətləri daha da möhkəmləndirib. Bununla yanaşı, hərbi əməkdaşlığın praktiki istiqaməti də daim genişlənməkdədir. Ölkəmizin müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə iştirakı hər iki ordunun döyüş hazırlığının artırılmasına, koordinasiyanın gücləndirilməsinə və regional təhlükəsizliyə mühüm töhfə verir.

Müdafiə sənayesi sahəsində birgə layihələr, müasir silah sistemlərinin tədarükü və texniki təchizatın təkmilləşdirilməsi istiqamətində atılan addımlar qardaş ölkələrimizin müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edir. Bu əməkdaşlıq Azərbaycanın və Türkiyənin regional təhlükəsizlik məsələlərindəki həmrəyliyini gücləndirməklə yanaşı, bütövlükdə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bu yaxınlıq yalnız siyasi və iqtisadi deyil, mədəni və təhsil sahələrində də özünü göstərir. Türkiyənin Azərbaycanda həyata keçirdiyi təhsil və mədəniyyət layihələri, eləcə də tələbə və müəllim mübadiləsi proqramları iki xalq arasında qarşılıqlı anlaşmanı və mənəvi bağlılığı daha da dərinləşdirib. Bu fəaliyyətlər gələcək nəsillərin bir-birinə daha yaxın və həmrəy olmasına zəmin yaratmaqla, Azərbaycan-Türkiyə qardaşlığının möhkəm və davamlı olacağını bir daha sübut edir.

İşğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin həyata keçirilməsində Türkiyə şirkətləri fəallıq göstərir, dəmir və avtomobil yolları tikir, eyni zamanda, tunellərin, su anbarlarının inşasında, aqroparkların yaradılmasında da iştirak edirlər. Qarabağda kəndlərin və şəhərlərin yenidən qurulması prosesinə də türk şirkətləri cəlb olunublar. Zəngilanın işğaldan azad edilməsinin ikinci ildönümünü Azərbaycanla birlikdə qeyd edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlət başçısı İlham Əliyevlə birlikdə 2022-ci ildə rayonda "Dost Aqropark" "ağıllı kənd" təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər. Şərqi Zəngəzurda iki dost ölkənin ilk investisiya layihəsi olan "Dost Aqropark"ın təməli Türkiyə Prezidentinin Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakından sonra Zəngilana səfəri zamanı qoyulmuşdur. Prezident Rəcəb Tayyib Ərdoğanın oktyabrın 20-də reallaşdırdığı səfərdə mühüm addımlardan biri də Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının, eyni zamanda, Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimlərində iştirakı oldu. "Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ının açılışını birlikdə qeyd etdik. Bu da bölgəyə birinci özəl sərmayədir, özəl yatırımdır və bu aqroparkın adı - "Dost Aqropark" özlüyündə hər şeyi deyir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında bildirib. İki dost, qardaş, müttəfiq ölkənin - Azərbaycan və Türkiyənin prezidentləri üç hava qapısını dünyaya birgə açıblar.

Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılışı iki qardaş xalq arasında getdikcə güclənən dostluq və həmrəyliyin rəmzinə çevrilib. Qeyd edək ki, 2023-cü ilin fevral ayında Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan hökuməti zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində yeni yaşayış məhəlləsinin tikintisinə dəstək verib. Türkiyənin Kahramanmaraş şəhərində salınan "Azərbaycan" məhəlləsinin baş planı üzrə 7, 8, 11 və 12-ci kvartallarında tikinti işləri yekunlaşıb. Müasir memarlıq üslubunda inşa edilən evlər günəş panelləri ilə təchiz olunub. Dörd kvartalda yerləşən 26 yaşayış binası sahiblərinə təhvil verildi. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib. Yeni yaşayış massivində evlərlə yanaşı, müxtəlif ticarət və sosial obyektlər, parklar, istirahət yerləri, uşaq meydançaları da var.

Məhəllədə ilkin olaraq aprelin 29-da Heydər Əliyev adına ibtidai məktəbin təməli qoyulub. 24 sinifli məktəbin təməlqoyma mərasiminə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videokonfrans vasitəsilə qatılıblar. 2024-cü il sentyabr ayının 11-də "Azərbaycan" məhəlləsində MİDA tərəfindən inşa edilən Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışı baş tutub. Kahramanmaraşda ucaldılan Azərbaycan-Türkiyə dostluq abidəsi isə sarsılmaz qardaşlığın rəmzinə çevrilib. Bu layihə təkcə tikinti layihəsi deyil, eyni zamanda, Azərbaycan Türkiyə qardaşlığının, ağır günlərdə bir-birinə dayaq olmağın, dostluq və həmrəyliyin nümunəsidir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 20 iyun (№ 125).- S.5.